Nigar Ağabala qızı GÜLMALIYEVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı
https://doi.org/10.30546/4.71.73001.2024.02.028

BİZNES MÜHİTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNİN NƏZƏRİ-METODİKİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi – biznes mühitinin təhlilinin nəzəri-metodiki bazasının qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsidir.

Tədqiqatın metodologiyası – tədqiqat prosesində müşahidə, müqayisəli təhlil, abstraksiya, sintez, riyazi modelləşdirmə və məntiqi ümumiləşdirmə üsullarından istifadə olunmuşdur.

Tədqiqatın tətbiqi əhəmiyyəti – əsaslandırılan müddəalar biznes mühitinin təhlili və qiymətləndirilməsi prosesində istifadə edilə bilər.

Tədqiqatın nəticələri – müasir biznes mühitinin təhlili və qiymətləndirilməsinin metodiki təminatının təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – müasir biznes mühitinin təhlilində modelləşdirmə və rəqəmsallaşmanın üstünlüklərindən istifadə imkanları aşkar edilmiş, onların reallaşdırılması yolları göstərilmişdir.

Açar sözlər: metodika, biznes mühiti, modelləşdirmə, təhlil, rəqəmsallaşma.

Giriş


Müasir biznesin idarə edilməsi üzrə qərar qəbul edilərkən, istisnasız olaraq biznes subyektinin fəaliyyət göstərdiyi və ya göstərəcəyi biznes mühiti mümkün olduğu dərəcədə əhatəli və detallı qiymətləndirilməlidir. Bu halda, ilk növbədə həmin mühitin əhatə etdiyi ərazinin istehsal və resurs potensialı, inkişafın strateji istiqamətlərini müəyyən edən dövlət siyasətinin prioritetləri və rəqəmsal mühitin tələbləri nəzərə alınır. Biznes mühitinin rəqabət qabiliyyəti diaqnostika edilməli, burada istehsal, elmi-texniki, infrastruktur, informasiya, kadr və s. potensialı dəyərləndirilməlidir. Sadalananlarla yanaşı biznes mühitində iqtisadi fəallıq səviyyəsini şərtləndirən digər komponentlər də kifayət qədər təfərrüatlı əhatə edilməlidir. Onu da qeyd edək ki, sadalanan məsələlər kifayət qədər tədqiq olunmamışdır. Göstərilənlər biznes mühitinin təhlili və qiymətləndirilməsinin nəzəri-metodiki məsələlərinin aktual olduğunu söyləməyə əsas verir.

Biznes mühitinin təhlilinin metodiki bazasına baxış

Biznes mühitini təhlil etmək üçün onu hüquqi, siyasi, iqtisadi, ekoloji, sosial və texnoloji mühitlərin kəsişməsi, həmin tərkib hissələrinin sistemli, qarşılıqlı əlaqəli və bir-birini tamamlayan mühiti kimi qəbul etmək olar (şəkil 1).

Yeri gəlmişkən, son dövrlərə qədər həmin komponentlər sırasında ekoloji mühitin qeyd edilməməsi faktına diqqət verilməlidir. Məlum olduğu kimi, həmin dövrdə biznes mühitinin dayanıqlı inkişaf tələblərinə uyğunlaşması obyektiv zərurət kimi qəbul edilmirdi. Yaşıl iqtisadi münasibətlərə keçid bu prosesdə dövlətin simasında cəmiyyətin maraqlarını təmin edən addımlar atmasını nəzərdə tutur. Odur ki, ekoloji tələblərə riayət olunması biznes mühitinin keyfiyyətinin mühüm xarakteristikası kimi qəbul edilməlidir.

Biznes mühitinin təhlili onu təşkil edən siyasi, hüquqi, sosial, texnoloji və əlbəttə, iqtisadi və ekoloji komponentlərin müvafiq metodika əsasında tədqiqini tələb edir. Biznes subyektlərinin fəaliyyətinin prioritetləri, siyasi, hüquqi, sosial, ekoloji və texnoloji amillərlə yanaşı onların bilavasitə çalışdığı konkret mühitlə müəyyən edilir. Haqqında danışılan prioritetlər müəyyən edilərkən nəzərə alınır ki, “ən böyük faydanı biznes mühitinin verdiyi imkanları reallaşdıra bilən və onun təhdidlərindən ən az itki ilə çıxan biznes subyektləri əldə edir” [1].



Şəkil 1. Biznes mühitini təşkil edən komponentlər

Biznes mühiti həm fəaliyyətdə olan, həm də yeni yaradılan biznes subyektlərinin uğurlarına birbaşa təsir edir. Əlbəttə, yeni yaradılan biznes subyektin fəaliyyətində biznes mühitinin yerini və rolunu müəyyən etmək üçün layihəyəqədərki hazırlıq və layihələndirmə işlərinə xüsusi diqqət verilməlidir. Bu və digər halda biznes subyektinə biznes mühit amillərinin təsirini təhlil etmək və proqnozlaşdırmaq lazım gəlir. Biznes mühitinin səmərəlilik meyarları ilə qiymətləndirilməsi zamanı onun biznes subyekti ilə qarşılıqlı əlaqədə olduğu nəzərə alınmalıdır. Başqa sözlə, biznes subyektləri də biznes mühitinə əhəmiyyətli təsir göstərə bilir. Təbii ki, həmin təsir, rəqəmsallaşma və digər amillərlə yanaşı biznes subyektlərinin təşkilatlanma səviyyəsi ilə bağlıdır.

Biznes mühitinin qiymətləndirilməsinə yanaşmalar müxtəlifdir. Yanaşmaların müxtəlifliyi, əhəmiyyətli dərəcədə biznes mühitinin təhlilə cəlb edilən xarakteristikalarındakı fərqlərlə, habelə tədqiqatçının öz qarşısına qoyduğu məqsədlərlə və həmçinin rəqəmsal mühitin tələbləri baxımından müvafiq verilənlər bazasının vəziyyəti ilə əlaqədardır. Yeri gəlmişkən qeyd edək ki, biznes mühitinin təhlili və qiymətləndirilməsinin metodiki bazasının təcrübədə yoxlanılaraq təkmilləşdirilməsi imkanları da, ilk növbədə məhz verilənlər bazasının mövcud vəziyyəti və inkişaf perspektivləri ilə şərtlənir.

Biznes mühitinin əsas xarakteristikalarına, son dövrlərə qədər mürəkkəblik və stabillik aid edilirdi [2, s. 119-147]. Müraciət edilən mənbədə biznes mühitinin mürəkkəbliyi dedikdə onun birbiri ilə qarşılıqlı əlaqədə olan və biznes subyektinə təsir göstərən çoxlu sayda müxtəlif elementlərdən ibarət olduğu nəzərdə tutulur. Stabillik xarakteristikası isə biznes mühitində baş verən dəyişikliyin sürətində, daha doğrusu, həmin sürətin dinamik mühitlə müqayisədə aşağı olmasında ifadə olunur.

Sonrakı tədqiqatlarda biznes mühitinin xarakteristikalarına dinamiklik, amillərin qarşılıqlı əlaqəliliyi, turbulentlik və s. aid edilmişdir. Sadalanan xarakteristikaların daxil edilməsi biznesin idarə edilməsinə tələblərin daha da ciddiləşməsi fonunda baş verdi. Aşağıdakı mənbədə göstərildiyi kimi “biznes mühitinin turbulentliyi – buradakı dəyişikliklərin qeyri-müəyyənliyi və gözlənilməzliyinin yüksək dərəcəsidir və bu əsasən menecerlərin davamlı dəyişikliklərin qarşılıqlı əlaqə

zəncirlərini vaxtında görə bilməməsi ilə əlaqədardır” [3, s. 120]. Biznes mühitinin dinamikliyi normativ-hüquqi bazada, maliyyələşmə şərtlərində, tələbdə, istehlakçıların davranışında və s. baş verən yüksək tezlikli dəyişikliklərlə bağlı olur.

Maliyyə resurslarına çıxışın vəziyyəti iqtisadi fəallığın səviyyəsinə əhəmiyyətli dərəcədə təsir edir və biznes mühitinin qiymətləndirilməsində nəzərə alınmalı mühüm amillərdəndir. Bununla belə bir sıra tədqiqatçılar bu fikirdədirlər ki, təkcə maliyyələşmə amilini önə çəkməklə, daha doğrusu mövcud biznes mühitində yalnız maliyyələşdirmənin həcmini artırmaqla, biznes subyektlərinin fəallığını yüksəltmək çətindir. Problemin həlli üçün biznesin institusional mühitində mütərəqqi meyillərə uyğun dəyişikliklər etmək zəruridir [4, s.45].

Son onilliklərdə texnoloji inkişaf amilinin biznes mühitinin dinamikliyində, xüsusilə innovasiyalı biznes fəaliyyətində artan rolu müşahidə olunur [5, s. 41-63]. Müxtəlif mənbələrdə, gözlənildiyi kimi biznes mühitinin dinamikliyini şərtləndirən dəyişikliklərin fərqli şəkildə səciyyələndirilməsinə rast gəlinir. Bununla belə, dinamikliyə münasibətdə aşağıdakı ümumiləşdirilmiş yanaşmanı məqbul hesab etmək olar: biznes mühitində dəyişikliklərin tezliyi (yəni tempi); 2) dəyişikliyin növlərindəki fərq (yəni müxtəliflik qabiliyyəti); 3) nəzərdən keçirilən dəyişiklik çərçivəsində prosesin fərqli reaksiyası (sabitlik və ya qeyri-sabitlik) [6].

Bir sıra mənbələrdə biznes mühitinin qiymətləndirilməsi zamanı işgüzar fəallıq, rəqabət mühitinin durumu və istehlakçı əhval-ruhiyyəsi kimi komponentlərə diqqət yetirilməsi tövsiyə olunur [7]. Biznes mühitin, xüsusilə regional çərçivədə təhlili məqsədi ilə institusional yanaşmanı, daha doğrusu matris institusional modelinin qurulmasını məhsuldar hesab edən yanaşma, təcrübi baxımdan, zənnimizcə, diqqətəlayiqdir [8].

Kreativ yanaşmaların üstünlük təşkil etdiyi şəraitdə biznes mühitinin qiymətləndirilməsində koqnitiv yanaşmadan istifadə halları artmaqdadır. Həmin yanaşmalar biznes subyektlərinin bu və ya digər biznes mühitində uğur qazanması məqsədi ilə istehlakçıların emosiya və arzularını dərk etmək və onları idarə etmək üçün müəyyən imkanlar yaradır. Bu istiqamətdə aparılan tədqiqatlarda elmi-nəzəri müddəalar işlənsə də, təcrübi nəticələr arzu edilən səviyyədə deyildir. Aşağıdakı mənbədə biznes mühitinin qiymətləndirilməsində koqnitiv yanaşmanın insanlar-situasiya və motivasiya üçlüyündə əlaqələrin dərk edilməsinə üstünlük verilməsi tövsiyə olunur [9, s. 433-438].

Biznes mühitinin təhlilində koqnitiv yanaşmanın digər aspekti kimi biznes subyekti daxilində səlahiyyətlərin optimal bölgüsünün əldə edilməsi imkanları tədqiq edilmişdir [10]. Qeyri-səlis məntiqin digər imkanlarından istifadə də müvafiq tədqiqatların perspektivli istiqaməti hesab edilir.

Aşağıdakı mənbədə regional miqyasda biznes mühitinin tədqiqi üçün inkişafın əsas amillərinin identifikasiyası məqsədi ilə, ierarxiyanın təhlili üsulunu tətbiq etməyə cəhd etmişlər [11]. Ən mürəkkəb qərarların işlənib hazırlanması və qəbulu problemlərinə sistemli yanaşma üçün istifadə edilən riyazi alət kimi ierarxiyanın təhlili üsulu biznes mühitinin tədqiqinin məqsəd, meyarlar və alternativləri əhatə edən ierarxiyanın qurulmasından başlayır [12]. Növbəti mərhələlərdə biznes mühitinin maddi və qeyri-maddi amillərinin təsirinin qiymətləndirilməsi prosesində arqumentlərin əsaslandırılması zamanı intuitiv səviyyə imkanları da nəzərdən keçirilir. Sonda ierarxiya üzrə prioritetlər sintez olunur və əsas məqsəd - biznes mühitinin iqtisadi fəallıq və dayanıqlıq meyarları üzrə səciyyələndirilməsi baxımından alternativ həllərin prioritetləri hesablanır. Prioritetin ən yüksək qiymətinin əldə olunduğu alternativ ən yaxşı variant hesab edilir.

Biznes mühitində, xüsusilə müasir dövrdə qeyri-müəyyənlik yüksəkdir. Onun entropiyasının müəyyən edilməsi, biznes subyektinin qarşılaşa biləcəyi təhdidlərin öncədən qiymətləndirilməsi, informasiyanın assimmetriyasının minimuma endirilməsi biznes mühitinin səciyyələndirilməsinin mühüm aspektləridir.

Biznes mühitinin qiymətləndirilməsində modelləşdirmə

Biznes mühitinin qiymətləndirilməsində modelləşdirmənin imkanlarından istifadə perspektivli istiqamətlərdəndir. Həmin mühitdəki qeyri-müəyyənlik onun bazar təbiəti ilə bağlıdır və məhz modelləşdirmə çoxvariantlı yanaşmaya, nəticə etibarı ilə daha yaxşı variantın seçilməsinə imkan verir.Biznes subyektlərinin ölçüləri (mikro, kiçik, orta və iri biznes təmsilçiləri fərqləndirilməklə)

nəzərə alınmaqla biznes mühitinin qiymətləndirilməsi, hər şeydən əvvəl mikro, kiçik və orta biznes üçün nəzərdə tutulmuş imtiyaz və güzəştlərin iqtisadi fəallığa təsiri araşdırılmalıdır. Həmin məsələyə daha sonra baxılacağını nəzərə alaraq, bildiririk ki, aşağıdakı mənbədə göstərildiyi kimi Qərb ölkələrində tətbiq edilən metodikalarda kiçik biznes, biznes mühitinin qiymətləndirilməsi üçün baza hesab edilir [13, s. 95–110].

Kiçik və orta biznesin sosial- iqtisadi inkişafın dayanıqlığına mühüm təsirə malik olması fikri bir çox mütəxəssislər və tədqiqatçılar tərəfindən dəstələnir. Aşağıdakı mənbədə göstərildiyi kimi "iqtisadi artımın innovasiyalı modelinə yönəlmiş modernləşmə strategiyası obyektiv olaraq kiçik biznes və ilk növbədə innovativ, istehsal və ixracyönümlü biznes üçün artan rola malikdir. Məhz kiçik və orta ölçülü biznes subyektləri biznesin ən kreativ seqmenti kimi milli iqtisadiyyatların davamlı inkişafı üçün zəmin yaradır" [14]. Eyni zamanda, biznes subyektinin sinergetik effekt yaratmağa imkan verən zəruri ölçülərə malik olmasının iqtisadi inkişafın dinamikasına nəzərəçarpacaq təsir göstərdiyi də nəzərdən qaçmamalıdır. Qeyd olunanların biznes mühitinin təhlili metodikasında nəzərə alınması zəruriliyi diskussiya obyekti olmasa da, bunun təcrübi həlli həm metodiki, həm də informasiya çətinlikləri ilə qarşılaşır.

İnvestisiya axınları, xüsusilə birbaşa investisya axını biznes mühitinin vəziyyətinin qiymətləndirilməsində mühüm göstərici sayılmalıdır. Dövlətin tənzimləyici tədbirləri və ölkəyə investisiya axını arasında əlaqə mövcuddur. İqtisadi fəallığı dəstəkləyən tədbirlər və birbaşa investisiya axınları arasında, bir çox hallarda düz mütənasiblik müşahidə olunur. Bu və digər amillərin nəzərə alındığı tədqiqatlarda biznes mühitinin keyfiyyəti və investisiya axınları arasında birbaşa asılılığın olduğu göstərilir [15, s. 831–839].

Ölkədə (regionda) biznes mühitinin qiymətləndirilməsində indeks-reytinq yanaşması kifayət qədər geniş tətbiq olunur. Bu yanaşma vahid qaydada hesablanan göstərici əsasında ölkədə biznes mühitini müqayisəli qiymətləndirməyə və investorları cəlb etməyə imkan verir. Haqqında danışılan göstərici qismində - ölkədə biznes mühitinin rəqabət qabiliyyətini əks etdirən - əhalinin gözlənilən ömür müddəti, təhsilə sərf olunan illərin orta sayında ifadə olunan əhalinin savadlılıq səviyyəsi və adambaşına düşən ÜDM-də ifadə olunan(alıcılıq qabiliyyəti pariteti ilə müəyyən edilən) yaşayış səviyyəsi kimi göstəricilər əsasında hesablanan insan inkişafı indeksi daha çox istifadə olunur [16].

Biznesin inkişaf səviyyəsinin, iqtisadi vəziyyətin, dövlət idarəçiliyinin səmərəliliyinin, müvafiq təhlükəsizliyin təmin edilməsinin, şəxsi azadlıqların təminatının, təhsil və səhiyyəsin səviyyəsinin, sosial kapitalın inkişafının qiymətləndirilməsini nəzərdə tutan ölkənin çiçəklənmə indeksi [17] də kifayət qədər geniş tətbiq edilir. Beynəlxalq miqyasda daha geniş tətbiq edilən indikatorlardan biri də, Dünya Bankının 300-dən çox göstərici üzrə ayrı-ayrı ölkələr üzrə hesabladığı "biznesin aparılması indeksi"dir. Həmin indeks iqtisadiyyatın, biznesin, dövlət idarəçiliyinin, infrastrukturun inkişafı vəziyyətini səciyyələndirir [18]. Cari vəziyyətin və dinamikanın səciyyələndirilməsində inteqral göstəricilərdən istifadə təcrübəsinin geniş yayılmasının səbəblərindən biri, həmin göstəricilərin müqayisəli təhlil imkanlarının məqbul səviyyədə olmasıdır.

Biznes mühitinin təhlili, bu mühitdə biznes subyektlərinin qarşılaşdığı əsas problemlərini aşkara çıxarmağa kömək etməlidir. Postsovet məkanı ölkələrində biznes suryektlərinin qarşılaşdığı əsas problemlərə aşağıdakılar aid edilir: inflyasiya, müqavilə öhdəliklərinə əməl etməyin çətinliyi, tələbin aşağı düşməsi, logistik və maliyyə problemləri və s. [19].

Biznes mühitinin innovasiyalı fəaliyyət baxımından əlverişliyi məsələsi tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdə araşdırılır. Aşağıdakı mənbədə innovativ, yaradıcı və rasionallıq baxımından biznes proseslərinin yenidən dizaynı və yaxşılaşdırılması problemləri tədqiq olunmuşdur [20]. Haqqında danışılan tədqiqatda çoxkriteriyalı yanaşma diqqəti cəlb etsə də, qeyd etməliyik ki, yenilik (xüsusilə davamlı yaradıcılıq) və rasionallıq aspektlərinə birgə baxış, heç də həmişə arzuolunan nəticəni verməyə bilər.

Biznes mühitinin innovasiyalara açıqlığı və innovasiyalı fəaliyyəti dəstəkləməsi dövlətin innovasiya siyasəti ilə bağlıdır. Aşağıdakı mövqe ilə razılaşmağı məqsədəuyğun hesab edirik ki,

“dövlətin innovasiya siyasəti təkcə büdcədən innovasiyaların birbaşa maliyyələşdirilməsinə deyil, həm də biznesin inkişafına və innovasiyaya həvəsləndirilməsinə yönəldilməlidir. Hökumətin maliyyələşdirilməsi ilə injinirinqin fəal inkişafının, innovativ işləmələrin kommersiyalaşdırılmasının, marketinq və beynəlxalq satışın dəstəklənməsi məqsədəuyğundur” [21, s.44].

Biznes mühitinin innovasiyalı fəaliyyət üçün əlverişliliyində yüksək ixtisaslı kadr təminatının yaxşılaşdırılması vacib məsələdir. Bununla belə, unutmaq olmaz ki, biznes subyektinin elmi tədqiqatlara, təcrübi araşdırmalara və kadr hazırlığına vəsait ayırma imkanları, əhəmiyyətli dərəcədə onların ölçüləri ilə əlaqədardır. İnnovasiyalı biznes proseslərdə kadr hazırlığı xərclərinin xüsusi çəkisi və biznes mühitinin keyfiyyəti arasında korrelyasiya asılılığından danışmaq olar [22].

Biznes subyektinin uğurunu şərtləndirən və bilavasitə biznes nühitinə bağlı olan mühüm amillər qismində müvafiq mənbələrdə aşağıdakılar önə çəkilir: “tələb olunan kapitalın miqdarı (əlyetənlik, aşağı risk); bazar müxtəlifliyi (kiçik bazar sektorlarının mövcudluğu); böyük şirkətlər tərəfindən rəqabətin dərəcəsi; bazara giriş tələbləri (inzibati, qanunvericilik və s.); kadrların sayına və ixtisas səviyyəsinə aşağı tələblər; dəstəkləyici infrastrukturun (aqreqatorlar, nəqliyyat və s.) mövcudluğu; binalara aşağı tələblər (yeri, ölçüsü, keyfiyyəti)” [23].

Biznes mühitinin dinamikada qiymətləndirilməsi biznes prosesinin riyazi modelləşdirilməsi məsələsinə gətirilə bilər. Lakin aşağıdakı mənbədə göstərildiyi kimi “biznes prosesinin müxtəlif aspektlərini qeyd edən və nəzərə alan çoxsaylı modelləşdirmə üsulları mövcuddur. Həmin modellərin az bir hissəsi sonrakı kəmiyyət təhlilinə imkan verir və onlardan yalnız bir neçəsi yaxşılaşdırma prosesini strukturlaşdırmağa imkan verir” [24].

Biznes proseslərin yaxşılaşdırılması məqsədi ilə qurulan və reallaşdırılan modellər sistem əmələ gətirməklə son məhsulun istehsalına hazırlıq, istehsal, xidmət və istehlak sferasını əhatə edən qarşlıqlı əlaqəli bloklardan ibarətdir. Həmin blokların giriş, çıxış və digər komponentləri, xüsusilə texnoloji baxımdan ciddi surətdə fərqlənə bilir. Dəyər zəncirinin müəyyən halqalarını və onaların yaxşılaşdırılması imkanlarını aşkara çıxarmağa kömək etməklə biznes proseslərin modellər sistemi ümumi və kifayət qədər formallaşmış məqsədə xidmət edir. Modelləşdirmə, nəzəri baxımdan çoxvariantlı inkişaf ssenarilərini müqayisəli qiymətləndirməyə imkan verməklə məqsədə doğru hərəkətdə risklərin optimal idarə edilməsi üçün yolları müəyyən etməlidir. Təcrübədə bu xeyli dərəcədə mürəkkəb hesab edilən məsələdir və biznes subyektinin əsasən mənfəətin maksimumlaşdırılmasında ifadə olunan məqsədə doğru hərəkətində qarşılaşacağı risklərin ehtimalı və idarə olunması imkanlarının kəmiyyətcə qiymətləndirilməsini tələb edir. Eyni zamanda nəzərə almaq lazımdır ki, biznes proseslərində yüksək gəlir, əksər hallarda yüksək risklərlə müşayiət olunur. Başqa sözlə, biznes proseslərinin kəmiyyət və keyfiyyət qiymətləndirilməsi prosesində risklərin və uğurların (şansların) nisbətini optimallaşdıran modellərin qurulması və reallaşdırılması məsələləri aktuallaşır.

Bu baxımdan, biznes mühitində proseslərin şans və risklərin kompleks kriteriyası üzrə maksimumlaşdırılmasını nəzərdə tutan model bazasında təhlili və proqnozlaşdırılması məqsədəuyğundur [25]. Biznes proseslərin şans və risklərin kompleks kriteriyası üzrə maksimumlaşdırılması meyarı belə təqdim olunur:

$$\text{“R\&Ch} = \beta_{Ch}Ch - \beta_R R \quad (1)$$

burada, **Ch и R –** baxılan biznes prosesinə aid tam proqnozlaşdırılan şanslar və riskləri; **$\beta Ch \geq 0$ и $\beta R \geq 0$** - biznes prosesinin sahibi nöqteyi-nəzərindən şans və risklərin nisbi vacibliyi əmsallarını ifadə edir.

Biznes proseslərdə tam şansların **Ch** və risklərin **R** kəmiyyətləri şansların **$M_{Ch,k}$ (k = 1, 2, ..., L)** maddi ölçülərinin (gəlir, mənfəət, satışdan daxilolmalar) və risklərin (itkilər, zərərlər) **MR,k (k = 1, 2, ..., K)** məcmusu kimi müəyyən edilir.

Tam şanslar **Ch** və risklər **R** aşağıdakı kimi hesablanır:

$$Ch = \sum_{k \in L} M_{Ch,\,k}\, P_{Ch,k} \quad (2)$$

$$R = \sum_{k \in K} M_{R,\,k}\, R_{P,\,k} \quad (3)$$

$P_{Ch,k}$ və $P_{R,k}$ şansların və risklərin ehtimallarıdır” [25].

"Şanslar-risklər" (R&Ch) (1)–(3) kompleks meyarının dəyərini maksimuma çatdıran istehsal biznes prosesinin optimallaşdırma modeli istehsalı təmin edən c1, c2, ..., sm qiymətləri ilə kənardan alınmış x1, x2, ..., xm istehsal amillərinin qeyri-mənfi həcmlərinin tapılmasına yönəldilmişdir:

$$\mathbf{R\&Ch = \beta_{Ch}\sum_{k\in L} M_{Ch,\,k}\, P_{Ch,k} - \beta_{Ch}\sum_{k\in K} M_{R,\,k}\, R_{P,\,k} \rightarrow max\ (4)}$$

İstehsal amillərinin alınması üçün gələcək məcmu xərclərin bütün biznes prosesi üçün ayırdığı maliyyə resurslarından İ çox olmaması ehtimalı aşağıdakı kəmiyyətdən az olmayacaqdır:

$$\mathbf{P\ \{c_1\, x_{1+}\, c_2\, x_2 + ... + c_m\, x_m + \leq I\} \geq p\ (5)"}$$

[25]. Müraciət edilən mənbədə göstərildiyi kimi (5) ifadəsi biznes prosesinə dair ekspert proqnozuna inam dərəcəsini əks etdirən subyektiv ehtimaldır. Şərh edilən modelin reallaşdırılmasında rəqəmsal alətlərin istifadəsi, məhz verilənlərin təhlili və yenidən strukturlaşdırılması imkanları ilə bağlıdır.

İndi isə biznes mühitinin təhlili və qiymətləndirilməsində ekspert və bilik mühəndisinin birgə iştirakı məsələlərinə baxaq. Təhlil və qiymətləndirmənin alqoritmi və onun reallaşdırılması üçün zəruri verilənlər bazasının olmadığı hallarda ekspert qiymətləndirməsi biznes subyekti sahibinə biznes proseslərə mümkün olduqca obyektiv baxmağa və bəzi xarakteristikaları korrektə etməyə kömək edir. Süni intellekt biznes mühitinin təhlili və qiymətləndirilməsinin metodiki təminatında get-gedə daha əhəmiyyətli yer tutmaqdadır. Süni intellektin imkanlarının reallaşdırılmasında ekspert sistemlərinin və bilik bazalarının birgə istifadəsinin təmin edilməsində bilik mühəndisi mühüm yer tutur. Odur ki, bilik mühəndisliyinin biznes mühitinin təhlilində rolunun artacağı şübhə doğurmur.

Biznes analitikası, məlum olduğu kimi, biznes fəallığının və deməli, biznes mühitinin keyfiyyətinin tədqiqinin rəqəmsal mühitdə reallaşdırla bilən texnologiyasıdır. Biznes subyektinin məhz analitika sayəsində əldə etdiyi nəticələr həm subyektin, həm də onu əhatə edən mühitin səmərəliliyini qiymətləndirməyə yardımçı olur. Bu gün böyük verilənlər texnologiyaları sayəsində biznes analitikası inkişafının yeni keyfiyyət səviyyəsinə çıxmaqdadır. Yeni imkanlar, bu və ya digər dərəcədə biznes mühitinin inkişaf perspektivlərinə münasibət bildirməyə yardımçı olacaqdır.

Nəticə

Müasir biznes mühitinin təhlilinin nəzəri-metodiki bazası yeni reallıqların tələblərinə tam cavab vermir. Həmin bazanın təkmilləşdirilməsi istiqamətlərini, ilk növbədə innovasiyalı inkişaf tələblərinə uyğunlaşmaq və rəqəmsal mühitin üstünlüklərindən yararlanmaq zərurəti müəyyən edir. Biznesin inkişafının çoxvariantlı ssenarilərinin qurulması üçün biznes mühitinin modelləşdirilməsi imkanları aşkar edilməli və onların reallaşdırılmasının vasitə və istiqamətləri müəyyən edilməlidir. Rəqəmsal texnologiyaların tətbiqi sayəsində biznes mühitinin təhlilinin nəzəri-metodiki bazasının təkmilləşdirilməsi üçün yaranan yeni imkanlar biznes analitikasını işçi alətə çevirməyi tələb edir. Həmin tələblərə lazımı səviyyədə cavab verən biznes subyektlərinin uğur qazanmaq ehtimalı kifayət qədər yüksəkdir.

ƏDƏBİYYAT

1. Кузавко А. С. Анализ методик выявления закономерностей формирования и оценки бизнес-среды региона // Вопросы управления. 2019. № 3 (39). С. 129-139
2. Чайлд Дж. Организационная структура, внешняя среда и показатели деятельности организации: роль стратегического выбора // Теория организации: хрестоматия / пер. с англ.; под ред. Т. Н. Клеминой. СПб., 2009. С. 119—147
3. Забазнова Т. А. Сущность бизнес-среды и предпринимательской среды в сельских территориях // Пространство экономики. 2009. №2-2. URL: https:// cyberleninka.ru/article/n/suschnost-biznes-sredy-i-predprinimatelskoy-sredy-v-selskih-territoriyah (дата обращения: 26.02.2024). с.118-124

4. Александрин Ю.Н. Оценка качества бизнес-среды малого предпринимательства в регионе: институциональный и методический аспекты // Региональная экономика: теория и практика. 2012. №4. с. 42-50
5. Kozłowski R., Matejun M., Dynamic Business Environment as a Source of Technology Entrepreneurship Development – a Case Study, [in:] Grzybowska K., Wyrwicka M. (eds.), Knowledge Management and Organizational Culture of Global Organization, Publishing House of Poznan University of Technology, Poznan 2011, pp. 41-63
6. Дафт Ричард Л. Теория организации. М.:ЮНИТИ-ДАНА, 2006,736 с.
7. Golinelli, R. And G. Parigi (2004), “Consumer Sentiment and Economic Activity: A Cross Country Comparison”, *Journal of Business Cycle Measurement and Analysis*, vol. 2004/2, https:// doi.org/ 10.1787 /jbcma-v2004-art10-en
8. Decision Matrix Analysis. https://www.mindtools.com/aksic2i/decision-matrix-analysis
9. José C. Sánchez, Tania Carballo and Andrea Gutiérrez. The entrepreneur from a cognitive approach.Psicothema 2011. Vol. 23, nº 3, pp. 433-438 www.psicothema. Com
10. Жайлауов, Ерлан & Белик, Елена & Денисов, Игорь. (2019). Представление бизнес-модели как когнитивной системы. Russian Journal of Innovation Economics. 9. 1525. 10.18334/vinec.9.4.41356
11. Munizu M., Damang K., Armayah Asdar M., Brasit N. A study on priority factors of competitiveness and performance of manufacturing companies using Analytical Hierarchy Processes (AHP) // IOP Conference Series: Earth and Environmental Science. Vol. 235. (Issue 1). 2019
12. Андрейчиков А. В., Андрейчикова О. Н. Анализ, синтез, планирование решений в экономике. М.: Финансы и статистика, 2004. 464 с.
13. Belás J., Demjan V., Habánik J., Hudáková M., Sipko J. The business environment of small and medium-sized enterprises in selected regions of the Czech Republic and Slovakia// Ekonomie a Management. Vol. 18 (1). 2015. P. 95–110
14. Александрин Ю. Н. Методика оценки качества бизнес-среды малого предпринимательства на региональном уровне // Известия ВУЗов ЭФиУП. 2012. №1. URL: https://cyberleninka.ru/article/n/metodika-otsenki-kachestva-biznes-sredy-malogo-predprinimatelstva-na-regionalnom-urovne
15. Fabus M. Business environment analysis based on the Global Competitiveness Index (GCI) and Doing Business (DB): Case study Slovakia // Journal of Security and Sustainability Issues. Vol. 7. Issue 4. 2018. P. 831–839
16. Human Development Indices and Indicators [электронный ресурс]. URL: http://hdr.undp.org/en/global-reports
17. The legatum prosperity index 2023. URL: https://www.prosperity.com/feed/executivesummary-1
18. Doing business: measuring business regulations. URL: http://russian.doingbusiness.org/ru/reports/g lobal-reports/doing-business-2023
19. https://www.rbc. ru/economics/ 01/04/2022/6246cda19a79474f19c5 ba86
20. Мерзляк,А.В. (2015). Совершенствование бизнес-процессов инновационных предприятий. Креативная экономика, 9(11), 1351–1370. doi: 10.18334/ce.9.11.2168
21. Кондрашов Олег, Лапко Борис. Инновационная среда в системе экономического развития // Наука и инновации. 2020. №12 (214). URL: https://cyberleninka.ru/article/n/innovatsionnaya-sreda-v-sisteme-ekonomiches-kogo-razvitiya, с.38-44
22. Умнов В.А., Плюхина А.А. Условия развития и критерии успешности предприятий малого и среднего бизнеса // Вестник РГГУ. Серия «Экономика. Управление. Право». 2022. №3-2. URL: https://cyberleninka. ru/article/n/usloviya-razvitiya-i-kriterii-uspeshnosti-predpriyatiy-malogo-i-srednego-biznesa

23. Теоретические и практические аспекты развития предпринимательства в России / Под ред. В.А. Умнова. М.: ИНФРА-М, 2021. 164 с.
24. Vergidis, Kostas & Tiwari, Ashutosh & Majeed, Basim. (2008). Business Process Analysis and Optimization: Beyond Reengineering. Systems, Man, and Cybernetics, Part C: Applications and Reviews, IEEE Transactions on. 38. 69 - 82. 10.1109/TSMCC.2007.905812
25. Мадера, А. Г. (2015). Математическое моделирование и оптимизация бизнес-процессов на основе комплексного критерия «шансы — риски». *Российский журнал менеджмента*, *13*(4), 51–68. извлечено от https://rjm.spbu.ru/article/view/165

Нигяр Агабала кызы Гюльмалиева
Докторант Азербайджанского Университета Кооперации

Теоретико-методические аспекты анализа и оценки бизнес-среды

Резюме

Успешная деятельность субъектов предпринимательства связана с оценкой бизнес-среды. Уровень анализа и оценки бизнес-среды зависит от совершенства методологической базы. Цель исследования – оценить теоретическую и методологическую основу анализа бизнес-среды и определить направления ее совершенствования. В процессе исследования использовались методы наблюдения, сравнительного анализа, абстракции, синтеза, математического моделирования и логического обобщения. Прикладная значимость исследования – обоснованные положения могут быть использованы в процессе анализа и оценки бизнес-среды. Результаты исследования – определены направления совершенствования методического обеспечения анализа и оценки современной бизнес-среды. Оригинальность и научная новизна исследования – при анализе современной бизнес-среды выявлены возможности использования преимуществ моделирования и цифровизации, а также показаны пути их реализации.

Ключевые слова: методология, бизнес-среда, моделирование, анализ, цифровизация.

Nigar Agabala Gulmalieva
Doctoral student at Azerbaijan Cooperation University

Theoretical and methodological aspects of analysis and assessment of the business environment

Summary

The successful activities of business entities are associated with an assessment of the business environment. The level of analysis and assessment of the business environment depends on the perfection of the methodological base. The purpose of the study is to evaluate the theoretical and methodological basis for analyzing the business environment and determine areas for its improvement. During the research, methods of observation, comparative analysis, abstraction, synthesis, mathematical modeling and logical generalization were used. Applied significance of the study - substantiated provisions can be used in the process of analyzing and assessing the business environment. The results of the study - directions for improving methodological support for the analysis and assessment of the modern business environment have been identified. Originality and scientific novelty of the research - when analyzing the modern business environment, the possibilities of using the advantages of modeling and digitalization are identified, and ways of their implementation are shown.

Key words: methodology, business environment, modeling, analysis, digitalization.